| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 14.05.2014 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 161 |
| **ADI** | “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Respublika Qəzeti (Dərc olunma tarixi: 17-05-2014, Nəşr nömrəsi: 102), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-05-2014, Nəşr nömrəsi: 05, Maddə nömrəsi: 474) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 17.05.2014 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 180.030.040 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201405140161 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 16.05.2014 |

**“Dəniz limanları haqqında” Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının 2014-cü il 18 aprel tarixli 945-IVQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 28.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, müsabiqənin keçirilməsi qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 9.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dəniz Limanları Reyestrinin aparılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.6. həmin Qanunun 11.1-ci maddəsinə uyğun olaraq, gəmi agenti haqqında Əsasnaməni Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.7. həmin Qanunun 11.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın formasını, qüvvədə olma müddətini, verilmə və ləğv edilmə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.8. həmin Qanunun 12.4-cü maddəsinə uyğun olaraq, ərazi sularında üzmə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.9. həmin Qanunun 13.1-ci maddəsinə uyğun olaraq, limanlarda qanunsuz müdaxilə aktı zamanı təhlükəsizliyin təmin edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.10. həmin Qanunun 13.3-cü maddəsinə uyğun olaraq, limanın və limanın infrastruktur obyektlərinin mühafizəsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.11. həmin Qanunun 15.2-ci maddəsinə uyğun olaraq, limanda xidmətlərin göstərilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.1.12. həmin Qanunun 20.6-cı maddəsinə uyğun olaraq, dəniz terminalının operatoru tərəfindən realizə olunan yükün və ona görə hesablaşmaların uçotu qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. “Dəniz limanları haqqında” Azərbaycan Respublikası Qanununun *3.1.2-ci və 5.4-cü maddələrində,* 28.1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir; [1]

3.2. həmin Qanunun 4.1-ci maddəsində, 5.1-ci maddəsinin birinci cümləsində, 6.1-ci (ikinci halda), 7.1-ci maddələrində, 9.2-ci maddəsinin ikinci cümləsində, 9.5-ci, 10-cu, 11.1-ci maddələrində, 11.2-ci maddəsinin ikinci cümləsində, 12.4-cü, 13.1-ci, 13.3-cü, 15.2-ci, 20.6-cı, 23.1-ci maddələrində, 23.2-ci maddəsinin ikinci cümləsində və 29.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

*3.2-1. “həmin Qanunun 3.1.2-ci maddəsində “orqan (qurum)” dedikdə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinə münasibətdə Azərbaycan İnvestisiya Holdinqi, digər limanlara münasibətdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi nəzərdə tutulur;* [2]

3.3. həmin Qanunun 2.2-ci maddəsinin ikinci cümləsində, ~~*3.1.2-ci,*~~ 6.1-ci (birinci halda) maddələrində, 6.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 7.3-cü, 7.4-cü, 8.4-cü maddələrində, 9.2-ci maddəsinin birinci cümləsində, 11.2-ci maddəsinin birinci cümləsində, ~~12.1-ci,~~ 13.2-ci, 13.6.1-ci və 13.6.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi* həyata keçirir; [3]

3.4. həmin Qanunun 4.2-ci və 12.2-ci (birinci və ikinci hallarda) maddələrində nəzərdə tutulmuş müvafiq icra

hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Müdafiə Nazirliyi həyata keçirir;

*3.4-1. həmin Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir;*[4]

3.5. həmin Qanunun 13.6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, öz fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* həyata keçirir;

3.6. həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;

*3.7. həmin Qanunun 5.4-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.*[5]

4. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası “Dəniz limanları haqqında” Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsində nəzərdə tutulmuş liman xidmətlərinə, liman qurğularının istismarı, yükaşırma və dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərə görə tarifləri iki ay müddətində təsdiq etsin.

~~5. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli 395 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 4, maddə 327; 2008, 8, maddə 720, 11, maddələr 970, 980; 2009, 12, maddə 983; 2011, 2, maddə 85; 2012, 7, maddə 678) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:~~[6]

~~5.1. 8.14-cü bənddə “həyata keçirmək” sözləri “həyata keçirilməsini tabeliyindəki qurum vasitəsilə təmin etmək” sözləri ilə əvəz edilsin;~~

~~5.2. 8.15-ci bənddə “nəzarət etmək” sözləri “nəzarət edilməsini tabeliyindəki qurum vasitəsilə təmin etmək” sözləri ilə əvəz edilsin;~~

~~5.3. 8.17-ci bənddə “Azərbaycan Respublikasının” sözlərindən əvvəl “tabeliyindəki qurum vasitəsilə” sözləri əlavə edilsin;~~

~~5.4. 8.23-cü bənddə “tədbirlər görmək” sözləri “tədbirlər görülməsini tabeliyindəki qurum vasitəsilə təmin etmək” sözləri ilə əvəz edilsin;~~

~~5.5. 8.27-ci bənddə “həyata keçirmək” sözləri “həyata keçirilməsini” sözləri ilə, “təşkil etmək” sözləri “təşkil edilməsini tabeliyindəki qurum vasitəsilə təmin etmək” sözləri ilə əvəz edilsin;~~

~~5.6. aşağıdakı məzmunda 8.28-1-ci, 8.30-1 – 8.30-8-ci bəndlər əlavə edilsin:~~

~~“8.28-1. dəniz yollarını, habelə dəniz yollarında və sahildə naviqasiya avadanlıqlarının quraşdırılması yerlərini müəyyən etmək;~~

~~8.30-1. limanların dövlət reyestrinin aparılmasını təmin etmək;~~

~~8.30-2. limanların fəaliyyətə başlamasına hazırlıq səviyyəsini yoxlamaq;~~

~~8.30-3. limanların müvəqqəti bağlı elan edilməsinə dair qərar qəbul etmək;~~

~~8.30-4. limanların bağlı elan edilməsinə dair vəsatətlə çıxış etmək;~~

~~8.30-5. gəmi agenti xidməti göstərmək üçün fiziki və hüquqi şəxslərə sertifikatlar vermək;~~

~~8.30-6. tabeliyindəki qurum tərəfindən dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyəti ilə bağlı xidmətlərin (naviqasiya, bələdçi, kanal, lövbər, mayak, gəmi yığımı və s.) göstərilməsinə görə müəyyən olunmuş tariflərə əsasən yığımların təmin olunmasına nəzarət etmək;~~

~~8.30-7. limanlarda dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyat və sağlamlığının, dəniz ətraf mühitinin mühafizəsi ilə əlaqədar icrası məcburi olan göstərişlər vermək;~~

~~8.30-8. limanlara “Gəmi və liman vasitələrinin mühafizəsi haqqında Beynəlxalq Məcəllə”də nəzərdə tutulmuş sənədlərin verilməsini təmin etmək;”;~~

~~5.7. aşağıdakı məzmunda 15-1-ci bənd əlavə edilsin:~~

~~“15-1. Administrasiyanın rəisi öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə tapşıra bilər.”.~~

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 may 2014-cü il
161

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 16 sentyabr 2015-ci il tarixli **603** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 sentyabr 2015-ci il, 203 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 990**)
2. 31 yanvar 2020-ci il tarixli **921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 1 fevral 2020-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 10**)
3. 17 mart 2020-ci il tarixli **960** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 19 mart 2020-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 236**)
4. 9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909**)
5. 22 may 2018-ci il tarixli **90** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 23 may 2018-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 958**)

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 31 yanvar 2020-ci il tarixli **921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 1 fevral 2020-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 10**) ilə 3.1-ci bəndə "**Qanununun**" sözündən sonra "**5.4-cü maddəsində və**" sözləri əlavə edilmişdir.

9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909**) ilə 3.1-ci bənddə "**5.4-cü maddəsində və**" sözləri "**3.1.2-ci və 5.4-cü maddələrində,**" sözləri ilə əvəz edilmişdir.

[2] 16 sentyabr 2015-ci il tarixli **603** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 sentyabr 2015-ci il, 203, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 990**) ilə yeni məzmunda 3.2-1-ci bənd əlavə edilmişdir.

17 mart 2020-ci il tarixli **960** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 mart 2020-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 236**) ilə 3.2-1-ci və 3.5-ci bəndlərdə "**Dövlət Dəniz Administrasiyası**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

9 avqust 2021-ci il tarixli **1417** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 10 avqust 2021-ci il, 165 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 8, maddə 909**) ilə 3.2-1-ci bənddə "**nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini**" sözləri "**orqan (qurum)" dedikdə**" sözləri ilə, "**Azərbaycan Respublikasının Nazirlər Kabineti**" sözləri "**Azərbaycan İnvestisiya Holdinqi**" sözləri ilə və "**həyata keçirir**" sözləri "**nəzərdə tutulur**" sözləri ilə əvəz edilmişdir.

[3] 16 sentyabr 2015-ci il tarixli **603** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 sentyabr 2015-ci il, 203, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 9, maddə 990**) ilə 3.3-cü bənddən "**3.1.2-ci,**" sözləri çıxarılmışdır.

17 mart 2020-ci il tarixli **960** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 mart 2020-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 236**) ilə 3.3-cü bənddən **"12.1-ci,"** sözləri çıxarılmışdır və həmin bənddə "**Dövlət Dəniz Administrasiyası**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi** " sözləri ilə əvəz edilmişdir.

[4] 17 mart 2020-ci il tarixli **960** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 19 mart 2020-ci il, 61 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 3, maddə 236**) ilə yeni məzmunda 3.4-1-ci bənd əlavə edilmişdir.

[5] 31 yanvar 2020-ci il tarixli **921** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 1 fevral 2020-ci il, 21 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 1, maddə 10**) ilə 3.2-1-ci və 3.6-cı bəndlərin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.7-ci bənd əlavə edilmişdir.

[6] 22 may 2018-ci il tarixli **90** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 23 may 2018-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 958**) ilə 5-ci bənd ləğv edilmişdir.